# ÖMRÜNÜ KİTABXANA İŞİNƏ HƏSR EDƏN XANIM



Hələ orta məktəbdə oxuyarkən kitaba, mütaliəyə olan həvəsi, həyatda görmək və yaşamaq istədiklərini yazılı mənbələrimizdə tapmaq arzusu və babası, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Şahbuz Rayon Mədəniyyət Şöbəsinin müdiri Bayram Qurbanovun dəyərli məsləhəti Mətanət İbrahimovanı 1979-cu ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) kitabxanaçılıq fakültəsinə verməyə sövq edir. 1985-ci ildə kitabxanaçı-biblioqraf ixtisasına yiyələnən Mətanət xanım kitabxanaçılıq elminin sirlərinə vaqif olur və onun kitabları qoruyub gələcək nəsillərə ötürən kitabxanalara sevgisi daha da artır.

1981-ci ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Bakıya köçən kitabxanaçı xanım taleyini həmişəlik olaraq M.F.Axundov adına Respublika Kitabxanası (indiki Azərbaycan Milli Kitabxanası) ilə bağlayır. Ölkənin baş kitabxanasında "Azərbaycan ədəbiyyatının arxivi" şöbəsində fəaliyyətə başlayan Mətanət xanım, 1989-cu ildən "Diyarşünaslıq biblioqrafik resursların yaradılması" şöbəsində səmərəli fəaliyyətini davam etdirir. O, 1994-cü ildən həmin şöbədə "Azərbaycanşünaslıq məlumat bazasının yaradılması" bölməsinin müdiridir. Artıq 35 ildir ki, bu kitabxananın əməkdaşıdır. İşlədiyi dövr ərzində Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırlayaraq çap etdiyi onlarca sanballı biblioqrafik vəsaitin tərtibçisi olmuş, müxtəlif vəsaitlərin hazırlanması prosesində yaxından iştirak etmiş, bir sıra göstəricilərin həmmüəllifi olmuşdur. Bunlardan "Heydər Əliyev", "Əziz Əliyev", "Qəzənfər Paşayev", "Səməd Vurğun", "Qara Qarayev", "Teymur Elçin", "M.P.Vaqif", "Mir Cəlal" və digər görkəmli şəxsiyyətlər haqqında biblioqrafiyalar Mətanət xanımın illərlə çəkdiyi əziyyətlərin, arxivlərdə, kitabxanalarda, muzeylərdə, şəxsi arxivlərdə və digər mənbələrdə apardığı axtarışların məhsuludur.

M.İbrahimova, həmçinin Teyyub Qurban biblioqrafiyasının ixtisas redaktoru, "Heydər Əliyev Fondu-10 il" , "Nizami Gəncəvi", "Bülbül" (Murtuza Rza oğlu Məmmədov), "Kitabi-Dədə Qorqud", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı 2009" biblioqrafiyalarının, müxtəlif illərdə Milli Kitabxananın nəşr etdiyi "Əlamətdar və tarixi günlər" təqviminin, tövsiyə xarakterli bir sıra göstəricilərin həmmüəlifidir.

Nəzərə çatdıraq ki, bir müddət öncə Azərbaycan Milli Kitabxanasının nəşri olan "Səməd Mənsur" biblioqrafiyasını da M.İbrahimova tərtib etmişdir. İlk dəfə olaraq çap olunan bu biblioqrafiyanın yanvar ayının 31-də Əmircan qəsəbəsində yerləşən Mədəniyyət evində Mədəniyyət Nazirliyinin, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə görkəmli şair Səməd Mənsurun 140 illiyinə həsr olunmuş "Həpsi rəngdir" adlı ədəbi-bədii tədbirdə təqdimatı keçirilmişdir.

M.İbrahimova, eyni zamanda bu günlərdə Milli Kitabxanada təqdimat mərasimi keçirilən "İsmayıl Şıxlı. Biblioqrafiya" kitabının da həmmüəllifidir

M.İbrahimova bundan başqa, çoxşaxəli arayışlarla çalışdığı şöbəyə müraciət edən oxuculara effektli və operativ xidmət göstərir, peşəkar biblioqraf kimi onların sorğularına dəqiq və vaxtında cavab verməklə oxucuların da sevgisini və hörmətini qazanmağı bacarmışdır.

Çalışdığı şöbədə işlə bağlı nə çətinlik olsa, dərhal Mətanət xanıma müraciət olunur və hər kəs bilir ki, ona həvalə edilən işin öhdəsindən yüksək səviyyədə gələcək. O, işini yaxşı bilən, ona tapşırılan hər bir tapşırığın öhdəsindən bacarıqla gələn, həmkarlarına düşdükləri çətinliklərdən çıxmağa yardımçı olan, şəxsi işlərində onlara köməklik göstərən, ən başlıcası isə dürüstlüyü, sözü üzə deməyi sevən, sadə, səmimi bir xanımdır. O, həmkarlarına qarşı ürəyindən keçən xeyirxahlıqları, yaxşı işləri sözlə deyil, işi, əməli ilə göstərən mərd qadındır. Mətanət xanım sözü ilə əməli bir olan, bütün ətrafındakılara kömək etməyi sevən və ondan zövq alan ziyalıdır.

M.İbrahimova Milli Kitabxananın yaranmasının 90 illiyi münasibətilə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Fəxri fərmanı və pul mükafatı ilə mükafatlandırılıb.

O, bu gün də Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çap etdiyi biblioqrafiyaların hazırlanmasında ixtisasçı kimi yaxından iştirak edir.

Mətanət İbrahimova xoşbəxt kitabxana işçisidir ki, hər il yeni-yeni biblioqrafik göstəricilər hazırlayaraq yazılı mənbələrimizi zənginləşdirir. Ona bu müqəddəs işlərində uğurlar diləyirik!

**Ədilə QOCAYEVA.**

Respublika.- 2019.- 26 may.- S.5